

Dünyada ilk dəfə olaraq döyünməyən ürəyin köçürülməsi uğurla keçərək, transplantologiya sahəsində yeni imkanlar açıb.

ANS PRESS-in məlumatına görə, Avstraliya cərrahları dünyada ilk dəfə olaraq döyünmə fəaliyyətini dayandırmış ürəyin uğurlu köçürülmə əməliyyatını ediblər.

Tibb işçiləri hesab edirlər ki, Avstraliyada döyünməyən ürəyin köçürülmə əməliyyatı orqanların transplantasiyası sahəsində yeni imkanlar yaradır. Bu vaxta kimi cərrahlar yalnız beyin ölümü qeydə alınmış donorun döyünən ürəyindən istifadə edə bilirdilər.

Avstraliyanın Müqəddəs Vinsent xəstəxanasının həkimləri döyünməyi dayandırmış ürəyi 20 dəqiqə sonra yenidən həyata qaytarmağa müvəffəq olublar. Bu da orqanların köçürülməsi sahəsində bir növ yeni inqilab olub.

Fəaliyyətini dayandırmış ürəyi həmişə edildiyi kimi soyumağa qoymayıblar. Adət olunan üsulun əvəzində orqan əməliyyatdan əvvəl “qutuda ürək” adı altında yeni mərhələ keçib. Bu zaman ürək əvvəlki üsul olan bədəndə deyil, qidalandırıcı maddələrin olduğu məhlulda qızdırılıb.